## Hulusi Akar: "Azərbaycana haqlı mübarizəsində dəstək verməyə davam edəcəyik"




**"Azərbaycan və Liviya başda olmaqla dost, qardaş və müttəfiqlərimizin haqlı mübarizəsinə dəstək verməyə, regional və qlobal sülhə töhfə verməyə davam edəcəyik".**

"Report" Türkiyə KİV-ə istinadən xəbər verir ki, bunu ölkənin milli müdafiə naziri Hulusi Akar deyib.

"Silahlı Qüvvələrimiz daxildə və sərhədlərdən kənarda FETÖ, PKK/YPG, İŞİD kimi terror təşkilatlarına qarşı mübarizə aparmaqdadır. Əldə etdiyimiz uğurlarda ən böyük ilham mənbəyimiz şəhid və qazilərimizin fədakarlıqları, millətimizin sevgisi, inamı, duasıdır", - o bildirib.

## Şuşada Türk Dövlətləri Təşkilatı ölkələrinin iştirakı ilə biznes forumu keçiriləcək



**Sentyabrın 16-da Şuşada Qarabağ Biznes Forumu keçiriləcək.**

Bu barədə Türk Dövlətləri Təşkilatının (TDT) "Twitter" səhifəsində qeyd olunub.

*Qeyd edilib ki, sentyabrın 16-da Azərbaycan Respublikasının Qarabağ bölgəsinin Şuşa şəhərində Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi ölkələrin iş adamlarının iştirakı ilə Qarabağ Biznes Forumu keçiriləcək.*

№ 151 (5673), 2022-ci il

Qiymətı 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 25 avqust 2022-ci il (cümə axşamı)

# 30 il əvvəl tərk etmişdi

### Zabux sakini doğma yurduna qayıtmağa hazırlaşır



**Laçın rayonunun Zabux kənd inzibati ərazisinə daxil olan Zabux kəndinin sakini Elburus Əsədov 30 il əvvəl tərk etdiyi doğma yurda qayıtmağa hazırdır.**

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən "Şərq"ə verilən məlumata görə, Zabuxa qayıdanda birinci dizini yerə qoyub torpaqdan öpərəm deyən laçınlı ağsaqqal orada yaşamaq, ata-baba ocağını bərpa etmək istəyir. Elburus Əsədov deyir: **"İşğal dövründə qanunsuz məskunlaşdırılmış ermənilər deyir ki, biz 30 ildir burada məskunlaşmışıq. Niyə soruşan yoxdur ki, burada 80, 100,110 il yaşayan azərbaycanlılar haradadır?!"**

Tezliklə doğma yurda qayıtmağa hazırlaşan keçmiş məcburi köçkün Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını ifadə edib, Allahdan şəhidlərimizə rəhmət, qazilərimizə şəfa diləyib.

Dövlət Komitəsinin hazırladığı videoçarxlarda Laçının, Zabuxun, Susun sakinləri doğma yurda qayıdışla bağlı fikirlərini bölüşürlər.



## Liderlər Dənizkənarı Milli Parkda qurulmuş "Qazax yurtası" ilə tanış olublar

Avqustun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Azərbaycan-Qazaxıstan diplomatik əlaqələrinin 30 illiyi münasibətilə Dənizkənarı Milli Parkda qurulmuş "Qazax yurtası" ilə tanış olublar. Bu barədə Prezidentin Mətbuat Xidməti məlumat yayıb.

## *Tarif Şurası:* "Aksiz dərəcəsi üzrə dəyişiklik yanacağın pərakəndə satış qiymətinə təsir göstərməyəcək"



**Aksiz dərəcəsi üzrə dəyişiklik avtomobil benzininin və dizel yanacağının pərakəndə satış qiymətinə təsir göstərməyəcək.**

Bu barədə Tarif (qiymət) Şurasının Katibliyindən bildirilib.

Şuranın məlumatında bildirilir ki, ümumiyyətlə qeyd olunan məhsullar üzrə qiymət dəyişikliyinin aparılması məsələsi müzakirə olunmur.

*Qeyd edək ki, Nazirlər Kabinetinin 2022-ci il 23 avqust tarixli 322 nömrəli "Neft məhsullarının aksiz dərəcələri səviyyəsinin dəyişdirilməsi və ölkə ərazisində daşınması xərcləri ilə bağlı bəzi məsələlər haqqında" qərarına əsasən, avtomobil benzininin aksiz dərəcəsi 42,0 faizdən 42,5 faizə, dizel yanacağının aksiz dərəcəsi isə 18,0 faizdən 18,3 faizə dəyişdirilib və qərar 1 sentyabr 2022-ci il tarixindən qüvvəyə minəcək.*

# Laçın azadlığına qovuşur

### Rusiya sülhməramlılarının dəhlizdəki postları sökülür



**Laçın dəhlizində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlıları köçməyə hazırlaşır. Artıq Qubadlı rayonu istiqamətindən Laçın dəhlizinin girişində və yol boyu qoyulmuş postların, nəzarət-buraxılış köşklərinin, rusiyalı hərbçilərin yaşadığı tikililərin sökülməsinə başlanılıb. Ərazini boşaltmağa hazırlaşan Rusiya sülhməramlıları müvəqqəti olaraq yeni dəhlizə köçəcəklər.**

Qeyd edək ki, Azərbaycan Laçın şəhərindən yan keçməklə Qarabağı Ermənistanla birləşdirən yolu qısa müddətdə istifadəyə verib. Bu səbəbdən dəhlizin üzərinə düşən Laçın şəhəri, Zabux və Sus kəndlərində qeyri-qanuni məskunlaşmış ermənilərin ərazini tərk etməsi üçün avqustun sonuna kimi vaxt verilib. Ermənilərin 30 il ərzində qeyri-qanuni yaşadıqları Laçın şəhərini, Zabux və Sus kəndlərini boşaltmaları prosesi yekunlaşmaq üzrədir. Müddət bitəndən sonra sözügedən yaşayış məntəqələri Azərbaycanın tam nəzarətinə keçəcək. Rusiya sülhməramlıları isə xidmətlərini müvəqqəti olaraq yeni yolda davam etdirəcəklər. Zabux və Sus kəndləri ətrafında gedən prosesləri "Şərq"ə təhlil edən Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli bildirib ki, Laçın şəhərinin Azərbaycanın nəzarətinə qaytarılması 10 noyabr razılaşmasına əsasən həyata keçirilir. Partiya təmsilçisinin sözlərinə görə, yolun marşrutu və nəzarəti üçtərəfli bəyanata uyğun olaraq Rusiya tərəfinin vasitəçiliyi ilə müəyyən edilib və razılaşdırılıb:

(səh.2)

# Ermənilər ödəniş qarşılığında hərbi xidmətdən qurtulacaqlar

### İrəvan hökuməti bununla büdcəni doldurmağa çalışacaq



**Ermənistan Müdafiə Nazirliyi çağırışçılara 24 milyon dram (60 min dollar) qarşılığında vaxtından əvvəl tərxis olunmağa icazə verməyi təklif edib. Bu dəyişiklik "Hərbi xidmət və hərbi qulluqçunun statusu haqqında" qanununda öz əksini tapıb və e-draft.am hüquqi aktların vahid portalında dərc olunub.**

Sənədə əsasən, çağırışçı hərbi xidmətdən vaxtından əvvəl, hətta dördüncü aydan və hazırlıq mərhələsini başa vurduqdan sonra buraxıla bilər. Bunun qarşılığında o, dövlət büdcəsinə 24 milyon dram ödəniş etməlidir.

(səh.2)



## Paşinyan Putinə zəng edib

### Üçtərəfli bəyanatların icrası müzakirə edilib

**Rusiya Prezidenti Vladimir Putinlə Ermənistanın Baş naziri Nikol Paşinyan üçtərəfli bəyanatların icrasını müzakirə edib.**

"Sputnik Armenia" xəbər verir ki, tərəflər arasında telefon danışığı rəsmi İrəvanın təşəbbüsü ilə baş tutub. Putinlə Paşinyan Qarabağdakı durumu müzakirə ediblər. Eyni zamanda 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il tarixli üçtərəfli bəyanatların icrasının vacibliyi vurğulanıb.

Bundan başqa, tərəflər regionda sabitliyin qorunması üçün Rusiya sülhməramlılarının fəaliyyəti barədə fikir mübadiləsi aparıblar.

(səh.4)

# Ölən yoxdur

### Daha 653 nəfər koronavirusa yoluxub




**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 653 yeni yoluxma faktı qeydə alınıb, 732 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxanlardan vəfat edən olmayıb.

Azərbaycanda indiyədək ümumilikdə 809 988 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 796 632 nəfər müalicə olunaraq sağalıb, 9 795 nəfər vəfat edib, aktiv xəstə sayı 3 561 nəfərdir.

*Ölkədə son sutka ərzində 4379, hazırkı dövrədək isə 7 131 537 test aparılıb.*

## Zığ şosesində qəza olub

### Ölənlər və xəsarət alanlar var



**Dünən Zığ şosesində baş verən ağır yol-nəqliyyat hadisəsində xəsarət alan bir nəfər saat 12:20 radələrində TƏBİB-in tabeliyində olan xəstəxanaya yerləşdirilib.**

Bu barədə TƏBİB-dən məlumat verilib.

Məlumata görə, 1964-cü il təvəllüdlü vətəndaşa (şərti adı A.C) açıq kəllə-beyin travması, baş beynin və beyin kötüyünün ağır dərəcəli əzilməsi, sağ beyin yarımkürəsi üzərində kəskin subdural hematoma, sağ təpə nahiyəsində əzilmiş cırılmış yarası diaqnozları qoyulub.

Həkimlərin bütün səylərinə baxmayaraq xəstə saat 14:40 radələrində vəfat edib.



# 21-ci əsr türk əsri olacaq

Firudin Cəlilov: "Tarixin təkəri bizi ora aparır"

(səh.2)



# AZAL inhisarçılıq edir

Fuad İbrahimov: "Qiymətin bahalığı ölkəyə gələn turistlərin də sayını azaldaraq turizmə ciddi ziyan vurdu"

(səh.4)

# Qazaxıstan və Azərbaycan bir-birinə yaxın və müttəfiq dövlətlərdir

## “Lap yaxın vaxtlarda biz ölkələrimiz arasında ticarətin həcmini bir milyard dollara çatdıra bilərik”



**”Orta Dəhliz çox böyük perspektivə malikdir”. Bunu avqustun 24-də Prezident İlham Əliyev Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev ilə geniş tərkibdə görüşü zamanı bildirib. Dövlət başçısı deyib ki, nəqliyyat-logistika infrastrukturunun inkişafı ilə bağlı böyük planlar var.**

Bu infrastrukturun yaradılması üçün həm Qazaxıstanda, həm də Azərbaycanda vaxtında tədbirlər görülüb: ”İndi ölkələrimiz arasında yük axınının birləşdirilməsi və onun həcminin artırılması, ölkələrimizin tranzit potensialının yüksəldilməsi barədə söhbət gedir. Müvafiq orqanlar artıq müəyyən vaxtdır ki, bu istiqamətdə aktiv qarşılıqlı fəaliyyət göstərirlər. Fikrimcə, Orta Dəhliz çox böyük perspektivə malikdir və əlbəttə, bu layihənin həyata keçirilməsində Qazaxıstanın və Azərbaycanın çox mühüm rolu var”.

### “Həm Qazaxıstanda, həm də Azərbaycanda çox müsbət investisiya mühiti var”

Prezident vurğulayıb ki, həm Qazaxıstanda, həm də Azərbaycanda çox müsbət investisiya mühiti var: ”Əminəm ki, biz iqtisadi-ticari münasibətlərin inkişafına da təkan verəcəyik. Əmtəə dövriyyəsinin artırılması üçün hələ böyük ehtiyatlar var. Bu gün biz gələcək iqtisadi-ticari əməkdaşlığın bəzi istiqamətləri barədə fikir mübadiləsi apardıq, qarşılıqlı tədarüklərin artırılması baxımından onu konkretləşdirə bilərik”. Dövlət başçısı bildirib ki, investisiya sahəsində də böyük perspektivlər var: ”Həm Qazaxıstanda, həm də Azərbaycanda çox müsbət investisiya mühiti, xarici investisiyaların böyük həcmi var. Düşünürəm ki, bizim bu istiqamətdə də səylərimizi birləşdirməyin, Azərbaycanda, Qazaxıstanda, ola bilsin, başqa ölkələrdə də birgə investisiya layihələrində iştirak etməyimizin vaxtı yetişib”.

Dövlət başçısı bəyan edib ki, Qazaxıstanın işğaldan azad edilmiş ərazilərdə tikəcəyi Mərkəz xalqımıza qardaşcasına münasibətin daha bir təzahürüdür: ”Biz artıq ikitərəfli münasibətlərimizin geniş gündəliyinə, beynəlxalq problemlərə dair çox ətraflı söhbət etdik və bütün məsələlər barədə ölkələrimizin mövqelərinin üst-üstə düşdüyünü gördük. Əlbəttə, Sizə təşəkkür etmək istərdim ki, dəvətimizi qəbul etmisiniz və ölkəmizə rəsmi səfər edirsiniz. Əminəm ki, bu səfər münasibətlərimizin gələcək inkişafı üçün çox böyük əhəmiyyət kəsb edəcək”.

### “Qazaxıstan və Azərbaycan əsas beynəlxalq məkanlarda səmərəli qarşılıqlı fəaliyyət göstərir”

Qazaxıstan Prezidenti də öz növbəsində qeyd edib ki, Qazaxıstan və Azərbaycan əsas beynəlxalq məkanlarda səmərəli qarşılıqlı fəaliyyət göstərir: ”Mən Bakıya xüsusi missiya ilə gəlmişəm - əməkdaşlığımızı yeni səviyyəyə çatdırmaq missiyası. Sevindirici haldır ki, son illərdə ticarətin həcmi praktiki olaraq 3 dəfə artıb. Lakin qeyd etmək istərdim ki, bu, arxayınlaşmağa əsas vermir, çünki fikrimcə, ticarəti artırmaq üçün hər halda imkanlar var. Ölkələrimizin hökumətləri məhz bu istiqamətdə işləməlidirlər ki, mənim fikrimcə, artıq lap yaxın vaxtlarda biz ölkələrimiz arasında ticarətin həcmini bir milyard dollara çatdıra bilək. Siz düzgün qeyd etdiniz ki, Qazaxıstan və Azərbaycan əsas beynəlxalq məkanlarda, ilk növbədə, Birləşmiş Millətlər Təşkilatında, ATƏT-də, Türk Dövlətləri Təşkilatında bir-biri ilə səmərəli qarşılıqlı fəaliyyət göstərir. Bu baxımdan ölkələrimiz arasında hər hansı problem yoxdur. Bu da sevindirici haldır ki, dövlətlərimizin parlamentləri bir-biri ilə sıx əməkdaşlıq edir. Müasir şəraitdə bu, çox vacibdir”. Kasım-Jomart Tokayev deyib ki, Qazaxıstan və Azərbaycan bir-birinə yaxın dövlətlərdir: ”Biz strateji tərəfdaşlarıq, müttəfiqlərik. Sevindirici haldır ki, bu gün ölkələrimiz arasında strateji tərəfdaşlığın və müttəfiqlik qarşılıqlı münasibətlərin dərinləşməsi haqqında Bəyannamə imzalanacaq”.

### ”Qazaxıstan Azərbaycana münasibətdə dövlətlərin ərazi bütövlüyü prinsipini həmişə dəstəkləyib”

Tokayev bildirib ki, Qazaxıstan Azərbaycana münasibətdə dövlətlərin ərazi bütövlüyü prinsipini həmişə dəstəkləyib: ”Qazaxıstanda Sizə çox böyük hörmət bəsləyirlər, insanlar Sizi tanıyır, dəstəkləyir, səmimi hörmət bəsləyirlər. Bununla əlaqədar bütün xalqımız adından Sizə bu gün orden təqdim etməyi zəruri saymışam. Məhz Sizin güclü, nüfuzlu rəhbərliyinizlə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi kimi tarixi əhəmiyyətli vəzifə yerinə yetirilib. Hesab edirəm ki, bu, gələcəkdə bizim əməkdaşlığımızın inkişafı üçün yaxşı əsas olacaq. Bu əməkdaşlığın yekunlarına və ya nəticələrinə gəldikdə, mən əsla şübhə etmirəm ki, onlar müsbət olacaq”.

### ”Azərbaycan nəqliyyat dəhlizlərinin inkişafı baxımından Qazaxıstan üçün xüsusi maraq doğurur”

Qazaxıstan rəhbəri vurğulayıb ki, Azərbaycan nəqliyyat dəhlizlərinin inkişafı baxımından Qazaxıstan üçün xüsusi maraq doğurur: ”Əlbəttə, Azərbaycan nəqliyyat dəhlizlərinin inkişafı baxımından Qazaxıstan üçün xüsusi maraq doğurur. Düşünürəm ki, Qazaxıstanın bir dövlət kimi, - faktiki olaraq biz Xəzər sahillərində yanaşı yerləşən qonşu ölkələrik, - burada çox yaxşı perspektivləri var. Mən hökuməti, müvafiq idarələri nəqliyyat-logistika əlaqələrinin inkişafı baxımından Sizin nümayəndələrlə sıx qarşılıqlı fəaliyyətə və birgə işə istiqamətləndirirəm”.

**İsmayıl**

# Laçın azadlığına qovuşur

## Rusiya sülhməramlılarının dəhlizdəki postları sökülür



**Laçın dəhlizində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlıları köçməyə hazırlaşır. Artıq Qubadlı rayonu istiqamətindən Laçın dəhlizinin girişində və yol boyu qoyulmuş postların, nəzarət-buraxılış köşklərinin, rusiyalı hərbçilərin yaşadığı tikililərin sökülməsinə başlanılıb. Ərazini boşaltmağa hazırlaşan Rusiya sülhməramlıları müvəqqəti olaraq yeni dəhlizə köçəcəklər.**

Qeyd edək ki, Azərbaycan Laçın şəhərindən yan keçməklə Qarabağı Ermənistanla birləşdirən yolu qısa müddətdə istifadəyə verib. Bu səbəbdən dəhlizin üzərinə düşən Laçın şəhəri, Zabux və Sus kəndlərində qeyri-qanuni məskunlaşmış ermənilərin ərazini tərk etməsi üçün avqustun sonuna kimi vaxt verilib. Ermənilərin 30 il ərzində qeyri-qanuni yaşadıqları Laçın şəhərini, Zabux və Sus kəndlərini boşaltması prosesi yekunlaşmaq üzrədir. Müddət bitəndən sonra sözügedən yaşayış məntəqələri Azərbaycanın tam nəzarətinə keçəcək. Rusiya sülhməramlıları isə xidmətlərini müvəqqəti olaraq yeni yolda davam etdirəcəklər.

*”Laçın dəhlizinin nəzarətimiz altında olması və alternativ yolun istifadəyə verilməsi o deməkdir ki, ərazilərimizə giriş və çıxışlar tam olaraq Azərbaycanın nəzarətinə keçmiş olacaq”*

**Zabux və Sus kəndləri ətrafında gedən prosesləri ”Şərq”ə təhlil edən Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli bildirib ki, Laçın şəhərinin Azərbaycanın nəzarətinə qaytarılması 10 noyabr razılaşmasına əsasən həyata keçirilir**. Partiya təmsilçisinin sözlərinə görə, yolun marşrutu və nəzarəti üçtərəfli bəyanata uyğun olaraq Rusiya tərəfinin vasitəçiliyi ilə müəyyən edilib və razılaşdırılıb: ”Burada mübahisə doğuracaq heç bir məqam yoxdur. Azərbaycan yeni yolun bizim ərazimizdəki hissəsinin inşasını yüksək keyfiyyətlə, qısa müddətdə icra etdi. Amma Ermənistan öz ərazisindən keçən hissənin tikintisini uzadır. Bu da İrəvanın öz öhdəliklərinin icrasına məsuliyyətsiz yanaşmasını, yerli erməni əhalinin rahatlıq və rifahına etinasızlığını nümayiş etdirir.

Azərbaycan tərəfi yenə də konstruktivlik nümayiş etdirərək, ermənilərin xahişini nəzərə alaraq, yolun Ermənistandan keçən hissəsi yekunlaşana qədər, 4.7 km-lik müvəqqəti yoldan istifadə olunmasına razılıq verib. Zabux kəndindən yayılan reportajdan görünür ki, ermənilər Laçından, eləcə də Laçın dəhlizi boyunca yerləşən yaşayış məntəqələrindən çıxmağa başlayıblar”.

**S.Əsədli deyib ki, məsələnin məğzi, hüquqi tərəfi ondan ibarətdir ki, işğala qədər Laçında erməni yaşamayıb:** ”Ermənilər Laçına işğal dövründə qeyri-qanuni köçürülüblər. Onların bir çoxu isə xaricdən - Livandan, Suriyadan və s. ölkələrdən köç ediblər. İndi həmin ermənilər Qarabağdakı qondarma rejimə qarşı üsyana çıxıblar. Yubanmalar bu etirazları azaltmaq üçün edilən mənasız cəhdlərdir. Laçın dəhlizinin nəzarətimiz altında olması və alternativ yolun istifadəyə verilməsi o deməkdir ki, ərazilərimizə giriş və çıxışlar tam olaraq Azərbaycanın nəzarətinə keçmiş olacaq. Bu da gələcəkdə ola biləcək təxribat və terror cəhdlərinin qarşısının alınması deməkdir”.

**İsmayıl Qocayev**

# Ermənilər ödəniş qarşılığında hərbi xidmətdən qurtulacaqlar

## İrəvan hökuməti bununla büdcəni doldurmağa çalışacaq



**Ermənistan Müdafiə Nazirliyi çağırışçılara 24 milyon dram (60 min dollar) qarşılığında vaxtından əvvəl tərxis olunmağa icazə verməyi təklif edib. Bu dəyişiklik ”Hərbi xidmət və hərbi qulluqçunun statusu haqqında” qanununda öz əksini tapıb və e-draft.am hüquqi aktların vahid portalında dərc olunub.**

Sənədə əsasən, çağırışçı hərbi xidmətdən vaxtından əvvəl, hətta dördüncü aydan və hazırlıq mərhələsini başa vurduqdan sonra buraxıla bilər. Bunun qarşılığında o, dövlət büdcəsinə 24 milyon dram ödəniş etməlidir. Dəyişikliklərin məqsədi respublikada məcburi hərbi xidmət müddətinin mərhələli şəkildə azaldılması üçün qanunvericilik bazasını hazırlamaqdır.

**Ermənistan hökumətinin yeni təklifini hərbi ekspert Ramil Məmmədli ”Şərq”ə izah edib. O bildirib ki, bu sistem Avropanın bir sıra ölkələrində də mövcuddur:** ”O cümlədən bizim strateji tərəfdaşımız olan Türkiyədə də bu qərar var. Belə ölkələrdə büdcəyə müəyyən məbləğ ödəməklə hərbi xidmət etməmək mümkündür. Bu qərarı verməyə iki əsas səbəb ola bilər. İlk növbədə büdcənin doldurulması məqsədi güdülə bilər. Eyni zamanda bu yolla qeyri-qanuni rüşvət hallarının və ordudan yayınmaların qarşısını almaq mümkündür. Əgər şəxs hərbi xidmətə getmək istəmirsə, o, öz pulunu dövlətin büdcəsinə köçürdəcək. Bununla da o, hərbi xidmət göstərməyəcək.

Digər tərəfdən peşəkar ordu sisteminin formalaşdırılması üçün də bu addım atılmış ola bilər. Xidmət etmək istəməyən şəxslər müxtəlif yollarla bundan boyun qaçırır. Bu sistemlə həmin şəxs qanuni olaraq xidmət etmir və ondan gələn gəlirlə digər şəxs müəyyən məbləğ müqabilində hərbi xidmət göstərir. Bu da ordunun peşəkarlaşmasına və formalaşmasına gətirib çıxarır. Bu baxımdan bu məsələni normal qəbul edirəm. Bunun hansısa ciddi problemdən irəli gəldiyini düşünmürəm”.

**Çimnaz Şahlar**

# 21-ci əsr türk əsri olacaq

## Firudin Cəlilov: ”Tarixin təkəri bizi ora aparır”



**”İki türk şəhərinin, Şuşa və Türküstanın qardaş şəhərlər elan edilməsi çox vacib məsələdir. Bunun bizim üçün siyasi mahiyyətdən daha çox mənəvi tərəfi var”.**

**Bu barədə Türküstan və Şuşanın qardaşlaşmasını ”Şərq”ə dəyərləndirən türkoloq alim, professor Firudin Cəlilov deyib.**

O bildirib ki, hər dəfə adamların qulağına bu adlar gələndə iki türk xalqının mənən birləşməsini düşünürlər: ”Təsəvvür edin ki, şəhərlərdən biri Qazaxıstandan digəri isə Azərbaycandadır. Bir-birindən uzaq olmalarına baxmayaraq qəlbləri bir döyünür və qardaş şəhərlər elan edilirlər. Mən bir neçə il öncə demişdim ki, 21-ci əsr türk əsri olacaq. İstəsələr də, istəməsələr də tarixin təkəri bizi ora aparır. Türk xalqlarının çox möhtəşəm keçmişi olub. Lakin zamanla o şanlı tarix aşınmaya məruz qalaraq bu vəziyyətə çatmışdı. İndi isə bu ölkələrin insanlarında olan potensial təpər yenidən oyanıb. Bu olaylar arzuların gerçəkləşməsidir və yalnız alqışa layiqdir”.

**Nihat Müzəffər**

# Tokayevin Bakı səfəri Qazaxıstan üçün yeni reallıqlar yaradacaq

**Turab Rzayev:**
”Belə plan var ki, Qazaxıstan qazının ən azından üçdə biri Azərbaycan üzərindən, Bakı-Tbilisi-Ceyhan boru kəməri vasitəsi ilə Türkiyəyə yönəldilsin”

**Samir Hümbətov:**
“Prezidentlərin öz doğma dillərində danışması rus dilinin türk dünyasında ortaq dil olmadığını ən yüksək səviyyədə nümayiş etdirdi”



**Dünən Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Azərbaycanda rəsmi səfərdə olub. Rəsmi qarşılanma mərasimindən sonra Prezident İlham Əliyevlə Qazaxıstan rəhbəri Kasım-Jomart Tokayev arasında təkbətək görüş keçirilib. Dövlət başçısı İlham Əliyev vurğulayıb ki, Qazaxıstan-Azərbaycan arasında dostluq, qardaşlıq münasibətləri daha yüksək pilləyə qalxacaq.**

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev isə öz növbəsində bildirib ki, bu səfər onun üçün xüsusi əhəmiyyət kəsb edir. Daha sonra Azərbaycan və Qazaxıstan prezidentlərinin geniş tərkibdə görüşü baş tutub. Görüşdən sonra Azərbaycan-Qazaxıstan arasında bir neçə sahədə önəmli sənədlər imzalanıb. Maraqlı məqamlardan biri odur ki, prezidentlər görüşlər zamanı Azərbaycan və Qazaxıstan türkcəsindən istifadə ediblər. Ümumiyyətlə, 2022-ci il Qazaxıstanla Azərbaycan arasında əlaqələr üçün əlamətdar ildir. Düz 30 il əvvəl, 1992-ci il avqustun 27-də iki ölkə arasında diplomatik münasibətlər qurulub. Yerləşdikləri regionlarda aparıcı dövlət hesab olunan hər iki ölkə 30 il ərzində siyasi, iqtisadi, mədəni-humanitar sahələrdə böyük inkişaf yolu keçib, mühüm nəticələr əldə edib. Ötən dövr iki qardaş ölkə arasında dövlətlərarası münasibətlərin formalaşması və inkişafında mühüm rol oynayıb. Azərbaycanla Qazaxıstan arasında münasibətlərin səviyyəsini müəyyən edən əsas məqamlara 2005-ci ildə Bakıda imzalanmış ”Strateji Tərəfdaşlıq və Müttəfiqlik Əlaqələri haqqında” Müqavilə daxildir. Bu saziş iki ölkə arasında dostluq və müttəfiqlik münasibətlərinin dərin köklərinin qeyd olunduğu strateji xarakterli ilk sənəd sayılır. Hər iki ölkə bir-birinin suverenliyini və ərazi bütövlüyünü təkcə sözdə deyil, həm də konkret əməllərdə açıq şəkildə dəstəkləyir. Qazaxıstan və Azərbaycan arasında geniş müqavilə-hüquq bazası mövcuddur. Buraya müxtəlif xarakterli 90-a yaxın sənəd, o cümlədən dövlətlərarası müqavilələr, hökumətlərarası sazişlər daxildir. Əməkdaşlıq formatına gəlincə, bu da çoxtərəfli xarakter daşıyır. Qazaxıstanla Azərbaycan BMT, ATƏT, İƏT, TÜRKSOY, Türk Dövlətləri Təşkilatı kimi beynəlxalq və regional təşkilatlarda fəal şəkildə qarşılıqlı fəaliyyət göstərirlər. Bundan başqa, iki ölkənin qanunvericilik orqanları arasında sıx əməkdaşlıq əlaqələri qurulub. Azərbaycanla Qazaxıstan arasında ikitərəfli münasibətlər təkcə siyasi deyil, həm də iqtisadi əlaqələrə əsaslanır. Azərbaycan hazırda Qazaxıstanın Cənubi Qafqazda əsas ticari-iqtisadi tərəfdaşıdır. Azərbaycan və Qazaxıstan neftçiləri, alimləri, mühəndisləri Xəzər dənizi hövzəsində birgə əməkdaşlıq ediblər. Bu ənənə günümüzdə də davam etdirilir.

**Qazaxıstan prezidentinin Azərbaycana səfərini və imzalanan sənədləri ”Şərq”ə dəyərləndirən politoloq Turab Rzayev burada iki mühüm məqam olduğunu diqqətə çatdırıb. Analitik vurğulayıb ki, Azərbaycanın qələbəsi bütün Orta Asiya ölkələrində, ümumən türk dünyasında ruh yüksəkliyi yaratdı:** ”İndiyədək özünə qapanmış vəziyyətdə olan, Rusiya və Çin arasında sıxışıb qalan Orta Asiyanın türk respublikaları türk birliyinin fərqinə vardılar. Gördülər ki, iki türk dövləti birləşərək 30 il işğal altında saxlanmış Qarabağı qısa müddətdə düşməndən təmizlədi. Eyni zamanda türk ölkələrinin nəhəng Rusiyanın qarşısında durduğuna şahidlik etdilər. Bundan sonra Özbəkistanla Türkiyə arasında ortaq hərbi təlimlər keçirildi. Qazaxıstan və Qırğızıstanla hərbi müqavilələr imzalandı. Azərbaycan və Türkiyə liderləri Orta Asiya ölkələrinə səfərlər etdi, mühüm təmaslar reallaşdırıldı. Həmçinin, liderlər öz ana dillərində bir-biri ilə söhbət etdilər. Önəmli siyasi-iqtisadi, hərbi qərarlar alındı. Qazaxıstan prezidentinin Azərbaycana səfəri də bu prosesin tərkib hissəsidir və növbəti mərhələsidir. Türk ölkələri bir-biri ilə əməkdaşlığı daha da sıxlaşdırmaq qərarı alıblar və bu istiqamətdə ciddi addımlar atılır. Tokayevlə dövlət başçısı İlham Əliyevin görüşündə tərcüməçidən istifadə olunmaması da diqqətçəkən nüansdır”.

Ekspert vurğulayıb ki, qazaxlar son aylar Rusiya tərəfindən sıxışdırılırlar. Xüsusən, neft-qaz ixracı məsələsində təzyiqlərə məruz qalırlar: ”Belə plan var ki, Qazaxıstan qazının ən azından üçdə biri Azərbaycan üzərindən, Bakı-Tbilisi-Ceyhan boru kəməri vasitəsi ilə Türkiyəyə yönəldilsin. Bu, reallaşarsa, Qazaxıstan üçün yeni reallıqlar yaranacaq. Digər yandan ”Trans-Xəzər” dəhlizi istiqamətində ilk mühüm addım atılmış olacaq. Nəzərə alaq ki, təkcə Qazaxıstan nefti deyil, Türkmənistan qazının da Azərbaycan üzərindən daşınması planları mövcuddur. Bu layihələr reallaşdıqca Azərbaycanın regional və qlobal əhəmiyyəti daha da artacaq. Həmçinin, maddi imkanlarımız çoxalacaq. Ən əsası isə Orta Asiya ölkələri neft-qaz ixracı sahəsində Rusiya asılılığından xilas olacaqlar. Təbii ki, xarici təhdidlərə qarşı birgə mübarizə də önəmli məqamlardandır”.

**Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin rəhbəri, politoloq Samir Hümbətov deyib ki, tərəflər arasında baş tutan görüşdə regional və beynəlxalq səviyyəli məsələlər müzakirə predmeti olub. Lakin analitikə görə, görüşdə xüsusilə diqqəti çəkən önəmli məsələlərdən biri prezidentlərin Azərbaycan türkcəsi və Qazaxıstan türkcəsindən istifadə etməsi idi:** ”Prezidentlərin öz doğma dillərində danışması dil və milli kimlik məsələsini bir daha gündəmə gətirmiş oldu. Eyni zamanda rus dilinin türk dünyasında ortaq dil olmadığını ən yüksək səviyyədə nümayiş etdirdi. Bu hərəkətlə həm də onu görmüş olduq ki, uzun illər ərzində postsovet məkanında hakimiyyətini qoruyub saxlamış rus dili getdikcə öz hakimiyyətini itirməyə başlayır. Onun yerini milli kimliyin möhkəmlənməkdə olan tərəfi alır”.

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Azərbaycançılıq ideyasının təbliği



# Azərbaycanın tale kitabının müəllifi...

### Fuad Heydər: "Heydər Əliyevin yeni tarixi dövrdə apardığı müstəqil Azərbaycanın dövlət siyasətinin əsasında məhz azərbaycançılıq ideologiyası dayanırdı"

**Azərbaycançılıq ideologiyası dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsini şərtləndirən tarixi-siyasi amillərin təsnifatını, onların ölkəmizə münasibətdə üzərinə düşən mənəvi öhdəlikləri müəyyənləşdirən konsepsiyadır. Azərbaycan dövləti dünya azərbaycanlılarının potensial imkanlarını cəmləmək, daha sıx əlaqələr yaratmaq, milli birliyə nail olmaq istiqamətində ardıcıl və sistemli iş aparmaqdadır. 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya azərbaycanlılarının I Qurultayı keçirilib. Ümummilli lider Heydər Əliyevin 2001-ci il mayın 23-də imzaladığı Sərəncama əsasən keçirilmiş bu qurultay dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi üçün şərait yaradıb.**

Ulu öndərin həmin tarixi tədbirdəki çıxışında dünya azərbaycanlıları arasında milli birliyin və həmrəyliyin təmin edilməsi, qarşıya çıxan problemlərin həllində səylərin birləşdirilməsi qurultayın qarşıya qoyduğu başlıca vəzifələr olub. Azərbaycançılıq konsepsiyası bu gün cəmiyyətin inkişafının ideya təməlini təşkil edir. Azərbaycançılıq məfkurəsi bizim əsas ideoloji dayağımızdır. Bu ideologiyanın çağdaş təkamül mərhələsi özünəməxsus dinamizmi ilə zənginləşməkdə, milli ictimai şüurun əsaslarını müəyyənləşdirməkdə və Azərbaycan xalqının dünya birliyindəki mövqelərini inamla yüksəltməkdədir. Azərbaycançılıq ideologiyasının formalaşmasında ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri olub. Ümummilli lider Azərbaycan üçün böyük tarixi nailiyyətlər, tarixi uğurlar və dövlətçilik təcrübələri qoyub getdi. Ulu öndərin milli-mənəvi taleyimiz, gələcəyə doğru inkişafımız üçün yadigar qoyduğu sərvətlərdən biri də azərbaycançılıq ideologiyası idi.

Heydər Əliyev müstəqillik dövrünün dövlət ideologiyasını formalaşdırarkən milli ideya kimi türkçülüklə paralel olan azərbaycançılığı yeni tarixi şəraitdə milli dövlətçilik ideologiyası kimi sistemə saldı. Ümummilli ideya, dünya azərbaycanlılarının ideologiyası, milli birlik təlimi kimi əsaslandırdı. Heydər Əliyevin azərbaycançılıq təlimində dövlətçiliyimizin və ideoloji düşüncəmizin tarixi ənənələri səylə nəzərə alınır. Bununla belə, onun konsepsiyasında tarixiliklə müasirliyin nəzəri vəhdəti əsas yer tutur ki, bu da həmin təlimin gələcəyə yönəlməsini təmin edir. "Əsrin müqaviləsi" ilə ümummilli lider həm müstəqil Azərbaycanın iqtisadi strategiyasını müəyyənləşdirdi, həm də müstəqil dövlət ideologiyası olaraq azərbaycançılığın iqtisadi təməllərini formalaşdırdı. Bununla da Heydər Əliyev azərbaycançılığı dövlətçiliyə tətbiq etdi. Azərbaycançılığa əsaslanan milli dövlət yaratdı. Xalqda dövlətçilik hissini formalaşdırdı. Məhz onun sayəsində xalqda dövlətə inam hissi, taxt-taca hörmət gücləndi. Ulu öndər təkcə dövlətçiliyə, milli ideologiyaya deyil, ümumən mənəvi mədəniyyətin tarixi taleyinə dil prizmasından nəzər salırdı. Çünki dil milli-mənəvi varlığın ifadəsidir. Dilin inkişafı milli şüurun dirçəlişini əks etdirir, milli-mənəvi özünüdərk ana dilinə münasibətdən başlanır. Ulu öndər öz dövlət siyasətini, ideoloji fikirlərini həyata keçirərkən, Azərbaycan xalqını özünə və dünyaya tanıtdırmaq üçün mədəniyyət amilindən bacarıqla istifadə edirdi: "Xalq bir neçə xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində seçilir. Bu xüsusiyyətlərdən ən böyüyü mədəniyyətdir".

**Yeni Azərbaycan Partiyasının Səbail rayon təşkilatının nümayəndəsi, gənc fəal Fuad Heydər "Şərq"ə açıqlamasında deyib ki, ümummilli lider özünün siyasi bacarığı gücünə ölkəni vətəndaş müharibəsi təhlükəsindən, ictimai-siyasi pərakəndəlikdən xilas etmişdi. Cəmiyyətin məqsədini, qayəsini öz varlığında, özünün güclü şəxsiyyətində təzahür etdirərək, doğma xalqını yenidən vahid bir məfkurə ətrafında səfərbər etməyi bacarmışdı:** "Onun parlaq siyasi zəkası, müdrikliyi sayəsində xalqımız bütün maneələri dəf edərək öz milli-mənəvi dəyərlərini qoruya bilmişdi. Azərbaycan xalqı tarixə həm də ona görə minnətdardır ki, Heydər Əliyev kimi böyük dühanı bir daha özünə qaytardı. Azərbaycanın tale kitabını mahir bir memar kimi ulu öndərin özü səhifələdi. Həlli vacib məsələləri yoluna qoydu, Azərbaycanın müstəqilliyinin qarantına çevrildi. Ümummilli lider dövlətçiliyimizi məhv olmaqdan qorudu, onu dağılmaq təhlükəsindən xilas etdi və möhkəmləndirdi. Milli həmrəylik və bütövlük yarada biləcək ideologiya yalnız 1993-cü ildən sonra müəyyənləşdirildi. XIX-XX əsrlərin hüdudunda yaşayan milli maarifçilərimizin ideya əsaslarını qoyduğu azərbaycançılıq ümummilli lider Heydər Əliyevin çıxışlarında özündə ümumbəşəri səciyyə daşıyan və milli dəyərlərə cavab verən prinsipləri ehtiva edən, həmrəyliyi təmin edən təkmil ideologiya halını aldı. Azərbaycançılıq təkcə bu dövlətin ərazisində yaşayan şəxsləri yox, eyni zamanda, bütün dünyada məskunlaşan azərbaycanlıları əhatə edərək dünya azərbaycanlılarının milli istinad mənbəyinə çevrildi. Heydər Əliyev Azərbaycanın yaxın və uzaq tarixini dərindən bildiyindən, beynəlxalq aləmdə tükənməz nüfuz qazandığından, zəngin dövlətçilik təcrübəsinə və fenomen yaddaşa malik olduğundan ayrı-ayrı dövrlərdə tarixi şəraitə uyğun və dövlətçilik baxımından düzgün qərarlar qəbul etdi. "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" kəlamı da dünyanın ən böyük azərbaycanlısı, ulu öndər Heydər Əliyevə məxsusdur".

**F.Heydər vurğulayıb ki, azərbaycançılıq ideologiyasının fəlsəfi təlim kimi sistemə salınması və müstəqil Azərbaycan dövlətçiliyinə tətbiqi dövlət idarəçiliyində zəngin təcrübəsi olan böyük şəxsiyyətin tarixi xidmətidir:** "Böyük nəzəri-tarixi ənənələri olsa da, azərbaycançılıq yeni siyasi dövrün ifadəsi, yeni təfəkkür mərhələsinin fəlsəfəsi kimi formalaşmışdı. Heydər Əliyevin yeni tarixi dövrdə, 15 iyun 1993-cü ildən etibarən apardığı müstəqil Azərbaycanın dövlət siyasətinin əsasında məhz azərbaycançılıq ideologiyası dayanırdı. Böyük dövlət xadimi çətin tarixi-siyasi situasiyalardan asanlıqla baş çıxaran, polad kimi möhkəm siyasi iradəyə malik lider, tarixin gedişatını öncədən görməyi və istiqamətləndirməyi bacaran böyük strateq idi. O, Azərbaycan xalqı və müstəqil dövlətçiliyimiz üçün zəngin nəzəri irs və qüdrətli tarixi təcrübə, idarəçilik təcrübəsi qoyub getmişdi. Onun dərin məzmunlu tarixi irsində Azərbaycana bağlanmayan, Azərbaycanın milli və tarixi taleyini əks etdirməyən bir fikir belə tapmaq mümkün deyil. Çünki azərbaycançılıq onun təkcə əməllərində deyil, qəlbində və zəkasında, daxili-mənəvi varlığında, əzəmətli şəxsiyyətində idi. Zaman keçdikcə ümummilli lider Heydər Əliyevin şəxsiyyəti daha möhtəşəm görünür. Qoca tarix onun cahanşümul əməllərini, dövlətçilik ideallarını və azərbaycançılıq nəzəriyyəsini təsdiqləyir".

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Erməni cəmiyyəti şok içərisindədir

### Aqşin Kərimov: "Bu həyəcanın erməni cəmiyyətini şoka salan həddi isə Azərbaycanın ordu gücü və onun Türkiyə ilə strateji müttəfiqliyidir"



**Türkiyə və Ermənistan xüsusi nümayəndələrinin - Serdar Kılıç və Ruben Rubinyanın növbəti görüşünə hazırlıq gedir. Budəfəki danışıqlar Azərbaycan-Ermənistan sərhədində və Qarabağda baş verən son hadisələr fonunda diqqət çəkir.**

Türkiyə Ermənistanla münasibətlərin normallaşması şərtlərini "Qisas" əməliyyatı və sərhəddəki hərbi hərəkətlilikdən sonra yarana biləcək mənzərədə Ankaranın artan rolu fonunda İrəvana çatdıracaq. Ermənistan şərt irəli sürmək imkanından məhrumdur. Ona görə də Bakı-Ankara ikilisinin müştərək maraqlarının içərisində yer almağa məcburdur. Fərqli cəbhəyə yuvarlanmaq onların ziyanınadır.

**Siyasi şərhçi Aqşin Kərimov hesab edir ki, Azərbaycanla Türkiyənin Ermənistan qarşısındakı tələbləri konkretləşir və qoyduğu vaxt limiti daralır. Analitik düşünür ki, Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlunun səsləndirdiyi bəyanat limitə dair qavrayışların İrəvan tərəfindən məcburən qəbul edilmə şərtinə eyhamdır:** "Çavuşoğlunun "Ermənistan regionda əməkdaşlıq istəyib-istəmədiyini konkret deməlidir" deyə bildirməsi danışıqların mətləbini açır. Azərbaycan və Türkiyədə Ermənistanın sülh sahəsindən sürüşərək bir balaca başqa istiqamətə yön almasına dair informasiyalar mövcuddur. İrəvanın yayındığı əsas məsələ Azərbaycanla sərhədlərin delimitasiyasındakı mövqeyi ilə əlaqəli ola bilər. Bu isə özünün yedəyində Zəngəzur dəhlizinə dair İrəvanın qeyri-müəyyən mövqeyini doğurur. Azərbaycanla Türkiyə isə Ermənistanın yaxasından tutub yenidən öz yerinə qaytarılmasını təmin edəcək və diplomatik təmaslarda İrəvandan vaxta, qrafikə dair cədvəl almağa nail olacaqlar. İrəvanı zəif bənd edən bir nöqtə də var. Bu, Ermənistanda Azərbaycan və Türkiyənin ölkə içərisində fəaliyyət göstərə biləcəyi haqqında qorxulu təəssüratın tüğyan etməsidir".

***İrəvan erməni cəmiyyətini sakitləşdirməkdən ötrü Ankaranın onu sıxma-boğmaya salmaması üçün xahişlər edəcək***

*A.Kərimov vurğulayıb ki, 10 noyabr bəyanatından sonra Ermənistanın hər addımı diqqətdə və nəzarətdədir:* "İrəvanın sülh meylindən yayınmamasına təsir etmək üçün böyük resurslar Azərbaycan və Türkiyənin aktivində mövcuddur. Məğlubiyyət sindromu psixologiyasının hökm sürməsi səbəbilə İrəvandakı həyəcan təbii qarşılanmalıdır. Bu həyəcanın erməni cəmiyyətini şoka salan həddi isə Azərbaycanın ordu gücü və onun Türkiyə ilə strateji müttəfiqliyidir. Buna görə də illərdir türkə düşmən mövqe ilə qürrələnən düşüncənin altının üstünə çevrilərək onun qorxu ilə əvəzlənməsi başadüşüləndir. Xüsusi nümayəndələrin danışıqlar stolu ətrafındakı müzakirələrində İrəvan erməni cəmiyyətini sakitləşdirməkdən Ankaranın onu sıxma-boğmaya salmaması üçün xahişlər edəcək. Ankara isə bu xahişləri Azərbaycana çatdıracaq, lakin Ermənistan həmin xahişləri yenidən vaxt qazanmaq üçün istifadə etsə, bunun cavabı ağır olacaq".

**İsmayıl**

# Tokayevin səfərinin arxasında bir çox səbəblər var

### Samir Hümbətov: "Bu səfərdən sonra Qazaxıstan neft və qazının ölkəmiz üzərindən Avropaya nəqli məsələsi gündəmə gələ bilər"



**Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev bu gün Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**

**Tokayevin Azərbaycana səfərini "Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları" Mərkəzinin sədri, politoloq Samir Hümbətov şərh edib.** O, "Şərq"ə açıqlaması zamanı qeyd edib ki, Qazaxıstan liderinin ölkəmizə səfərinin arxasında bir çox səbəblər var: "Siyasət, iqtisadiyyat, mədəniyyət və təhlükəsizlik sahəsində ikili və qlobal əməkdaşlığın gücləndirilməsi məsələləri gündəmdədir. Son dövrlər Rusiya-Ukrayna müharibəsi fonunda Qərbin enerjiyə olan tələbatının ödənilməsi məqsədilə atılan addımlar xüsusi diqqət cəlb edir. Çünki Azərbaycanın Avrasiya materikində önəmli nöqtədə yerləşməsi onun həm tranzit imkanlarının perspektivlərini artırır, həm də regionda əsas imkanlara malik dövlətə çevirir. Düşünürəm ki, Tokayevin səfərinin arxasında duran əsas səbəb iqtisadi sənədlərin imzalanmasıdır".

*Politoloqun fikrincə, Qazaxıstan qazının Azərbaycan üzərindən Qərbə daşınması məsələsi də səfər üçün aktualdır:* "Bir müddətdir ki, Rusiya Novorossiysk kəməri ilə qazax neftinin daşınmasını dayandırıb. Bu isə Qazaxıstan üçün əlverişli addım deyil. Zənnimcə, bu səfərdən sonra Qazaxıstan neft və qazının ölkəmiz üzərindən Avropaya nəqli məsələsi gündəmə gələ bilər. Digər tərəfdən Türk Dövlətləri Təşkilatı çərçivəsində tərəflərin iqtisadi və siyasi əməkdaşlıq perspektivləri həyata keçə bilər. Burada digər vacib məqam Çinin "Bir kəmər, bir yol" layihəsidir. Bildiyimiz kimi, Qazaxıstan Prezidenti Tokayevin Çin ilə də yaxın münasibəti mövcuddur. Həmçinin rəsmi Nur-Sultanın Çin ilə yaxşı münasibəti var. Düşünürəm ki, Tokayevin bu səfərində "Bir kəmər, bir yol" layihəsi ilə bağlı müzakirələr də öz əksini tapacaq. Qarabağ münaqişəsinin həlli, sülhün əldə edilməsi, regionda stabilliyin formalaşdırılması məsələsi də görüşdə əsas müzakirə predmeti ola bilər. Mədəni sahədə ikili əməkdaşlıq kimi məsələlərin də gündəmə gələcəyi gözləniləndir".

**Çimnaz Şahlar**

**Elan**

"Şərur" MTK ilə Məmmədov Əlvan Cahangir oğlu arasında bağlanılmış 355 nömrəli 25 dekabr 2013-cü il tarixli Kooperativ Mənzil Tikintisi haqqında müqavilə və onunla əlaqədar sənədlər itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:

Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in
kompyuter mərkəzində
yığılır, səhifələnir və
"Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya
Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti,
"Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC
1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı:
2550 Sifariş: 2320

# AZAL inhisarçılıq edir

## Fuad İbrahimov: “Qiymətin bahalığı ölkəyə gələn turistlərin də sayını azaldaraq turizmə ciddi ziyan vurdu”



**Az?rbaycan koronavirus pandemiyası səbəbindən 2 ildən çoxdur quru sərhədlərini bağlayıb. Ölkəyə giriş-çıxış edənlər isə məcbur hava yollarından istifadə edirlər. ”Az?rbaycan Hava Yolları”nda (AZAL) aviabiletlər müqayisədə hədsiz bahadır.**

Yəni bu qiymətlər vətəndaşların cibinə uyğun deyil. Artıq sentyabr ayına az qalıb. Minlərlə xaricdə təhsil alan tələbə məcburən hava nəqliyyatından istifadə edəcək. AZAL isə qiymətləri günü-gündən artırır. Məsələn, Bakı-İstanbul reysinə bilet 1322 manata təklif olunur.

AZAL-ın inhisarçılıqla məşğul olduğunu deyən iqtisadçı Fuad İbrahimov ”Şərq”ə bildirib ki, biletlərin baha olması əhali ilə yanaşı turizmin inkişafına da təsir edir: ”Ölkədəki digər aviaşirkətlər də uçuşları AZAL-la sövdələşmiş şəkildə həyata keçirir. Digər tərəfdən Azərbaycanda lokosterlər yoxdur. ”Buta” şirkətindəki qiymətlər isə digərlərindən fərqlənmir. Buna iqtisadi münasibətlərdə birinci dərəcəli qiymət diskriminasiyası deyilir. Onlar bilirlər ki, digər alternativ yollar qapalıdır. Xaricə gediş isə labüddür və buna ehtiyac var. Ona görə də inhisarçılıq edərək qiymətləri qaldırırlar. Ölkədən kənara gedənlər də məcburən bu qiymətə uçuş edirlər. Ölkə rəhbərliyinin təşəbbüsü ilə İnvestisiya Holdinqi yaradıldı. Bu holdinq qiymətlərin elastikliyinə və sağlam rəqabət mühitinə nəzarət üçün yaradılmışdı. Təəssüf ki, bu da AZAL-a heç bir dəyişiklik gətirmədi. Əksinə, sabotajları daha da artdı. Qiymətin bahalığı ölkəyə gələn turistlərin də sayını azaldaraq turizmə ciddi ziyan vurdu”.

**Nihat Müzəffər**

**Bir müddət öncə Azərbaycanın müxtəlif regionlarında başlayan meşə yanğınları hələ də davam etməkdədir. Şimal rayonlarımızdan başlayan yanğınlar digər rayonlara da keçib. Bir neçə gün əvvəl Qəbələ, Şabran, Quba və Siyəzəndəki meşəlik ərazilər alışmağa başlayıb.**



İsti və küləkli hava şəraiti yanğın ocaqlarının söndürülməsinə çətinlik yaratsa da, FHN xüsusi heyət və helikopterlərin köməyi ilə dağlıq-meşəlik ərazilərdəki yanğınları söndürməyə müvəffəq olub. Hazırda isə Şəki və Oğuzda meşələrin yanması davam edir. Şəkidəki yanğının söndürülməsi üçün ETSN-in yerli qurumlarının 100-ə yaxın əməkdaşı və FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin nümayəndələri çalışır. Eyni zamanda Oğuz Dövlət Yanğından Mühafizə Hissəsinin texnikaları və şəxsi heyəti, o cümlədən meşə təsərrüfatı işçiləri əraziyə cəlb olunub.

# Meşə yanğınları ekoloji fəlakətdir

## Elmar Nurəliyev: “İnsan faktorunun bu faciədə böyük rolu var”

Baş verən yanğınlardan və onların yaranma səbəblərindən ”Şərq”ə danışan təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyev bildirib ki, meşə yanğınları bütün dünyada baş verir. Onun sözlərinə görə, həm qonşu ölkələrdə, həm də okeanın digər tayında yanğınlar tüğyan edib: ”Burada ən təhlükəli məqam yanğınların çətin relyefli ərazilərdə baş verməsidir. Bu səbəbdən meşə yanğınlarının qarşısını almaq mürəkkəb prosesə çevrilir və yanğın qısa müddət ərzində geniş əraziyə yayılır. Təbii ki, bu da ekologiyaya, insanlara, flora və faunaya külli miqdarda ziyan vurur. Meşə yanğınlarından qorunmaq üçün yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət edilməlidir.

Meşə yanğınlarının başvermə səbəbləri müxtəlifdir. Burada texnogen, insan və digər faktorlar ola bilər. Havaların kifayət qədər isti keçməsi də meşə yanğınlarının yayılmasına təkan verir. Yay fəsli ilə bağlı insanların təbiət ilə təmasının artması, onların dağlıq və meşəlik ərazilərə üz tutması yanğınların yaranması üçün əsas amilə çevrilib. Ümumiyyətlə, meşə yanğınlarının yaranmasında insan faktorunun xüsusi payı var. Meşəətrafı ərazilərdə otlaq sahələrinin, əkin-biçin yerlərinin yandırılması, pikniklərin təşkili, plastik, şüşə tullantılar, yandırılan ocaqların sönməsindən əmin olmadan ərazini tərk etmək kimi hərəkətlər nəticədə böyük ölçülü meşə yanğınlarına gətirib çıxarır. Bu səbəbdən meşəlik ərazidə yaşayan insanlar, orada fəaliyyət göstərən turizm şirkətləri və bələdçilər yanğın təhlükəsizliyi qaydalarına riayət etməlidirlər. Turistlər və əhali bu mövzuda əlaqədar qurumlar tərəfindən məlumatlandırılmalıdırlar”.

**Çimnaz Şahlar**

# Müharibə iqtisadi əlaqələrə təsir etməyib

## Ukrayna ilə Azərbaycan arasında ticarət dövriyyəsi 3 dəfəyə yaxın artıb

**”923 milyon dollarlıq dövriyyə ilə Ukrayna Azərbaycanın post-sovet məkanında ikinci ən böyük ticarət tərəfdaşıdır”. Bu barədə millət vəkili, iqtisadçı Vüqar Bayramov deyib.**



Deputat bildirib ki, son 5 ildə iki ölkə arasındakı ticarət dövriyyəsi 3 dəfəyə yaxın artıb: ”Müharibəyə rəğmən, iki ölkə arasındakı ticarət dövriyyəsi bu ilin geridə qalan aylarında da qorunub saxlanılıb. Bu ilin yanvar-iyul aylarında Azərbaycanla Ukrayna arasında ticarət dövriyyəsi 476,5 milyon dollar olub. Həmin dövrdə Azərbaycan bu ölkədən 148 milyon 236 min dollarlıq məhsul idxal edib. Ölkəmizin Ukraynaya ixrac etdiyi məhsulun dəyəri isə 328 milyon 268 min dollar olub. Rusiya-Ukrayna müharibəsi başladıqdan sonra Azərbaycan Ukraynaya 20 milyon dollardan artıq humanitar yardım göndərib. Təcili yardım və yanğınsöndürən maşınlarını pulsuz benzinlə təmin edib. Azərbaycan Ukraynaya humanitar dəstəyini indi də davam etdirir. Avqustun 21-də Heydər Əliyev Fondu və Səhiyyə Nazirliyinin dəstəyi ilə reabilitasiya kursu keçmək üçün valideyn himayəsindən məhrum olmuş 7-17 yaşlı 28 uşaq və onları müşayiət edən 4 nəfər Bakıya gəlib. Ölkələr arasındakı strateji münasibətlər kifayət qədər yüksək qiymətləndirilir. Tərəflər qarşılıqlı olaraq ərazi bütövlüklərini tanıyırlar”.

**İsmayıl**



# Rəqəmsal İnkişaf və Nəqliyyat Naziri cənab Rəşad Nəbiyev Azercell ilə görüş keçirib

**Avqust ayının 22-si cənab Rəşad Nəbiyev ”Azercell Telekom” MMC-nin prezidenti və rəhbər heyəti ilə görüş keçirdi. R. Nəbiyev Azercell-in strateji təşəbbüsləri və gələcək planları barədə cari status hesabatlarını dinlədi.**

Cənab nazir, xüsusilə, abunəçilərin dinamik şəkildə artan ehtiyaclarını qarşılamaq üçün ölkə üzrə Azercell şəbəkəsinin genişləndirilməsi və modernizasiyası kimi irimiqyaslı layihənin icrasına dair hesabatla tanış oldu. Bu layihə 4G şəbəkəsinin tutumunun Bakı və Abşeron yarımadasında 80%, rayonlarda isə 75% genişləndirilməsini təmin edəcək. Həmçinin, cənab nazirə şəbəkənin genişləndirilməsi layihəsi üzrə işğaldan azad edilmiş ərazilərdə 80-dən çox yeni 4G baza stansiyasının qurulması və şirkətin satış və xidmət mərkəzlərinin istismara verilməsi haqqında məlumat verildi.

Nazir telekommunikasiya sənayesinin ən son trendlərinə uyğun olaraq Azercell-in təqdim etdiyi məhsul və rəqəmsal həllər barədə də məlumatlandırıldı. Belə layihələrə özündə həm maliyyə, həm də mobil rabitə imkanlarını birləşdirərək abunəçilərə rəqəmsal ödənişlər həyata keçirməyə imkan verən fintek həlli aiddir.

Şirkətin perspektiv planlarına gəlincə, cənab Nazirə əminliklə bildirildi ki, Azercell öz infrastrukturunun genişləndirilməsi və modernizasiyasına yatırım etmək, həm də abunəçiləri üçün innovativ rəqəmsal həllər təqdim etmək istiqamətində təşəbbüslərini davam etdirəcək.

Nazir Azercell komandasına şirkətin həyata keçirdiyi uğurlu layihələrə görə təşəkkür etdi və gələcək təşəbbüslərin həyata keçirilməsində müvəffəqiyyətlər arzuladı.

# Sərsəng su anbarına nəzarət planı var

## Asif Nərimanlı: “Azərbaycan ”erməni vətəndaşlarının” suyunu kəsmir, əvəzində su bölgüsü ilə Sərsəng anbarından istifadəyə nail olur”

**Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin nümayəndələri yerli mütəxəssislərin iştirakı ilə Rusiya sülhməramlılarının nəzarətində olan Sərsəng su anbarına baxış keçiriblər.**

Məqsəd Sərsəng su anbarında texniki monitorinqin aparılması, Tərtər çayından gələn və anbardan buraxılan suyun qrafikinin müəyyənləşdirilməsi və gələcəkdə bu istiqamətdə işlərin davam etdirilməsinə zəmin yaratmaq olub. Görüşdə əsasən iki məsələ - su bölgüsünün aparılması və ətraf rayonlara su verilməsinin bərpası müzakirə edilib. Danışıqlar qarşılıqlı anlaşma və konstruktiv şəraitində baş tutub. Əraziyə baxışın mütəmadi olaraq gələcəkdə də davam etdirilməsi razılaşdırılıb. Xatırladaq ki, mühüm starteji əhəmiyyətə malik olan Sərsəng su anbarının ümumi həcmi 560 milyon kubmetrdir. Qarabağ iqtisadi rayonunun ən iri su hövzəsi olan Sərsəng su anbarı vasitəsilə Bərdə, Tərtər, Ağdam, Ağcabədi, Yevlax və Goranboy rayonlarının əkin sahələri suvarılır. Su anbarı bəndində ümumi gücü 50 mvt olan su elektrik stansiyası tikilib.

**Siyasi şərhçi Asif Nərimanlı ”Şərq”ə açıqlamasında deyib ki, Rusiya sülhməramlılarının nəzarətində qalan Sərsəng su anbarına baxışın keçirilməsi və su bölgüsünün aparılmasının müzakirə edilməsi Bakının Qarabağ iqtisadi rayonuna nəzarəti gücləndirməsi baxımından əhəmiyyətli hadisə hesab edilə bilər. Ekspertin fikrincə, su anbarından istifadə Azərbaycanın suvarma sistemi üçün çox əhəmiyyətlidir:** ”İstisna deyil ki, anti-terror əməliyyatı ilə Sərsəngə nəzarətin bərpa edilməsi planı olub. ”Qisas” əməliyyatında Sərsəng ətrafındakı erməni kazarmaların vurulması da bu ehtimalı gücləndirən məqamdır. Lakin Bakının məsələni niyə əməliyyatla yox, su bölgüsü ilə həll etmək istəyi maraqlıdır.



### *“Bakı daxili məsələsini vasitəçisiz həll etməlidir”*

Bunun iki mümkün səbəbi ola bilər. Birincisi, Rusiya sülhməramlıları ilə konfliktin dərinləşdirilməməsi, bunun indi sərfəli olmamasıdır. İkincisi, Qarabağ iqtisadi rayonunda yaşayan ermənilərin həyat mənbəyini kəsmək istəməməsidir. Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazilərdəki ermənilərin qaz, elektrik, internet xətləri üzərində Bakının nəzarəti güclənib. Laçın yolunun alternativ marşruta keçməsi ilə bu kommunikasiyalardan böyük ölçüdə məhrum olacaqlar. Sərsəng su anbarından istifadə etdikləri suyun da kəsilməsi erməni əhalini tamamilə çıxılmaz vəziyyətə sala bilər. Bu, Azərbaycanın Qarabağdakı etnik ermənilərin öz vətəndaşı kimi qəbul etmək siyasətinə uyğun deyil. Bunu etmək erməni əhali arasında ”Azərbaycan ”soyqırımı” törədir” rəyinin yaradılması baxımından İrəvana da, Moskvaya da sərf edir. Azərbaycan ”erməni vətəndaşlarının” suyunu kəsmir, əvəzində su bölgüsü ilə Sərsəng anbarından istifadəyə nail olur. Sərsəngə nəzarət əməliyyatla bərpa edilsəydi belə, ruslar ermənilərin suyunun kəsilməməsinə nail olmaq üçün hər şeyə əl atacaqdılar”.

*A.Nərimanlıya görə, Azərbaycan məsələni müzakirə yolu ilə həll edir və mümkündür ki, bu, ”Qisas” əməliyyatından sonra razılaşdırılıb:* ”Ən əsas məqam görüş haqda məlumatda sülhməramlıların iştirakına dair heç bir qeydin olmamasıdır. Bu, separatçıların ”tərəf” kimi qəbul edilməsi yox, Əliyevin dediyi kimi, Qarabağdakı ermənilərlə birbaşa təmasın qurulması deməkdir, İrəvansız və Moskvasız. Bakı daxili məsələsini vasitəçisiz həll etməlidir”.

**İsmayıl Qocayev**

# Ən yüksək nəticə göstərən abituriyentlər mükafatlandırıldı




**”Nar” ali məktəblərə qəbul imtahanları zamanı ən yüksək nəticə göstərən abituriyentləri dəyərli hədiyyələrlə mükafatlandırdı. Modern.az İnfromasiya Agentliyinin media dəstəyi ilə baş tutan layihə çərçivəsində mükafatlandırma mərasimində ilin ən uğurlu abituriyenti adını qazanan 10 gəncə ”Nar”-dan ən müasir smartfonlar, eləcə də 700 AZN dəyərində balans təqdim edildi.**

Tədbirdə iştirak edən qonaqlar - Elm və Təhsil Nazirliyinin nümayəndələri, təhsil ictimaiyyəti üzvləri, media mənsubları abituriyentlərlə yaxından tanış olmaq və onları şəxsən təbrik etmək imkanı qazandılar.

”Nar”ın İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri Əziz Axundov gəncləri təbrik edərək onlara gələcək təhsil və karyeralarında müvəffəqiyyətlər arzuladı. ”Bu yüksək göstərici böyük əzm və zəhmətinizin bəhrəsidir. Mən inanıram ki, həyatınızda hələ bir çox uğurlar sizi gözləyir və yeni-yeni nailiyyətləriniz ilə hamımızı sevindirəcəksiniz.” - deyə Əziz Axundov sözlərinə əlavə etdi.

Xatırladaq ki, ”Nar” Modern.az İnformasiya Agentliyinin media dəstəyi ilə 2017-ci ildənbu layihəni həyata keçirir. Qeyd edək ki, təhsil, maariflənmənin inkişafı, gənclərdə oxumaq həvəsi oyatmaq ”Nar”ın KSM strategiyasının ən vacib istiqamətlərindən biridir. Mobil operatorun həyata keçirdiyi layihələr haqqında ətraflı məlumatı nar.az səhifəsindən əldə etmək olar.

”Nar” hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. ”Nar” son 3 ildəMüştəriLoyallığıİndeksinəgörəölkədəlidermobiloperatordur. Mobil operator müştəriyönümlülükstrategiyasınasadiqqalaraqsərfəliqiymətqarşılığındaüstünxidmətteqdimedir.

# "Mərkəzi Bankdan gözləntilər çoxdur"

## Osman Gündüz: ”Rəqəmsal manat layihəsi reallaşdırılmalıdır”




**Azərbaycan Mərkəzi Bankı (AMB) ölkədə rəqəmsal ödəniş həllərinin qəbulu və istifadəsinin genişləndirilməsi istiqamətində səylərini davam etdirir. Avqustun 23-də ”Google Pay” Azərbaycanda rəsmi olaraq istifadəyə verilib. Artıq Azərbaycanda ”Android” telefon və ya ”Wear OS” istifadəçiləri ”Google Wallet” tətbiqi vasitəsilə ödəniş kartlarını yadda saxlaya, ”Google Pay” ilə rahat, təhlükəsiz və təmassız ödənişləri həyata keçirməkləri mümkündür. ”PAŞA Bank”, ”Bank Respublika”, ”Azərbaycan Beynəlxalq Bankı”, ”Kapital Bank”, ”Rabitəbank” və ”Unibank”ın kart sahibləri ”Google Pay”dan yararlana bilərlər.**

Qeyd edək ki, ”Google Pay” nağdsız (təmassız) ödənişlərin aparılması üçün istifadə olunan proqram təminatıdır.

Çoxları ”Google Pay” proqramının fəaliyyətindən məlumatsızdır. ”Google Pay” istifadəçiyə hansı üstünlüyü qazandıracaq və məhdudiyyətlər varmı?

**”Şərq”in xəbərinə görə, ”Multimedia” İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz bildirib ki, ”Google Pay” ilə sadəcə kartla təmas olmadan, daha rahat və effektiv ödəniş imkanı qazanırıq:** ”Kart öncədən bir dəfə ”Google Wallet” cüzdanına əlavə edilməlidir. Əvvəl kartı POS-terminala yaxınlaşdırmaqla ödəniş edirdik. İndi mobil telefonun və ya ”ağıllı saatın” özünü ödəniş terminalına yaxınlaşdırıb ödənişi gerçəkləşdirəcəyik.

Həmçinin onlayn ödənişləri daha rahat şəkildə, hansısa formalar doldurulmadan, qeydiyyatdan keçmədən də reallaşdırmaq olacaq. Təmassız ödəniş zamanı internetin olması da əhəmiyyət kəsb etmir”.

Ekspertin sözlərinə görə, sadəcə, bəzi məhdudiyyətlər var. Gərək kartı verən bank ”Google Pay”i , telefon NFC (red. Near Field Communication - ”Yaxın Sahə Əlaqəsi” deməkdir) texnologiyanı və xidməti təqdim edən də bu tip ödənişi dəstəkləsin: ”Əlbəttə, bu gec də olsa ölkəmizdə rəqəmsal transformasiyada irəliyə doğru bir addımdır. Təmassız ödənişlər infrastrukturunun inkişafı texnoloji inkişaf göstəricisinin tərkib hissəsidir. Nəticədə ölkədə nəğdsiz, təmassız ödənişlərin xüsusi çəkisi kəskin şəkildə artacaq. MB-nin səyləri təqdirəlayiqdir.

Bununla belə MB-dən gözləntilər daha çoxdur. Bütövlükdə bank-maliyyə sektorun rəqəmsal transformasiyasına şərait yaradan, az qala 10 ildir ki, müzakirəsi gedən ”Ödəniş sistemləri və ödəniş xidmətləri haqqında qanun layihəsini” ortaya çıxarmalıdır. Rəqəmsal manat layihəsini reallaşdırmalıdır. Qlobal ödəniş sistemlərinə inteqrasiyada mühüm rol oynayan ”PayPal” ödəniş sistemini Azərbaycana gətirmək lazımdır. Ölkədə mövcud olan yüksək bank komissiyaları, nəqdləşdirmə məhdudiyyətləri və rüsumları, mənasız limitləri ləğv etmək və s. gərəklidir”.

**Aygün Tahir**